**Ləman Bağırova,**
*Azərbaycan ədəbiyyatının arxivi şöbəsinin*
*Çap məhsullarının biblioqrafik repertuarının*
*tərtibi bölməsinin müdiri*

# UNİVERSAL XARAKTERLİ CARİ VƏ RETROSPEKTİV BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİNİN YARADILMASINDA MİLLİ KİTABXANANANIN ROLU

***Xülasə:*** *Məqalədə Milli Kitabxananın universal xarakter daşıyan və milli biblioqrafik repertuarımızın yaradılmasına xidmət edən cari və retrospektiv vəsaitləri haqqında məlumat verilmişdir.*

***Abstract:*** *The article provides information about the current and retrospective resources of the National Library, which are universal in nature and serve to create our national bibliographic repertoire.*

***Резюме:*** *В статье представлена информация об универсальных ретроспективных и текущих пособиях, составляющих основу националь-ного библиографического репертуара Азербайджанской Национальной Библиотеки.*

***Açar sözlər:*** *Milli Kitabxana, cari, retrospektiv, çap məhsulu, biblioqrafik vəsait.*

***Key words:*** *National Library, current, retrospective, printed product, bibliographic resources.*

***Ключевые слова:*** *Национальная Библиотека, текущие и ретрос-пективные издания, печатная продукция, библиографические издания.*

Bildiyimiz kimi, biblioqrafiyalaşdırmanın obyektlərindən asılı olaraq biblioqrafik vəsaitlər məzmun, forma və məqsəd əlaməti üzrə fərqləndirilir. Məzmun əlamətinə görə biblioqrafik vəsaitlər universal, çoxsahəli, sahəvi, mövzu, şəxsi, diyarşünaslıq, ölkəşünaslıq vəsaitlərinə bölünür. Universal biblioqrafik vəsaitlər bütün bilik və təcrübi fəaliyyət sahələri üzrə ədəbiyyatı əks etdirir.

Azərbaycan Milli Kitabxanasının biblioqrafik informasiya fəaliyyətinin mühüm istiqamətlərindən birini biblioqrafik vəsaitlərin tərtibi və nəşrinin həyata keçirilməsi təşkil edir. Bu biblioqrafik göstəricilər müxtəlif mövzuları əhatə etməklə istifadəçilərin informasiya tələbatının ödənilməsi məqsədi ilə yaradılır. Milli Kitabxana sənədlərin biblioqrafiyalaşdırılması, ölkənin biblioqrafik vəsaitlər sisteminin formalaşması sahəsində geniş, əhatəli və səmərəli fəaliyyət göstərir.

Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayırlar. Digər

tərəfdən müasir dövrdə oxucuların rəngarəng sorğularının ödənilməsində milli biblioqrafiya vəsaitlərinin əhəmiyyəti çox böyükdür. Məhz ölкə ərazisində dərc olunan bütün çap məhsullarını toplu şəкildə özündə əкs etdirən milli biblioqrafiya vəsaitləri oxucuların, mütəxəssislərin, alimlərin, ziyalıların və nəhayət kitabxanaçıların daha çox müraciət etdikləri məlumat nəşrlərindəndir.

Azərbaycan Milli Kitabxanasının Azərbaycan ədəbiyyatının arxivi şöbəsinin Çap məhsullarının biblioqrafik repertuarının tərtibi bölməsi tərəfindən yaradılan dövri universal biblioqrafik vəsaitlər fundamental milli biblioqrafiyalar, cari informasiya göstəriciləri və retrospektiv mənbələrdir. Qeyd edək ki, əvvəllər bölmə müstəqil Çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya (Kitab Palatası) şöbəsi adı altında fəaliyyət göstərirdi. Əsası 1925-ci ildən qoyulmuş Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyəti XX əsrin 80-ci illərinin sonlarından xeyli məhdudlaşdırılmış, bir müddətdən sonra isə fəaliyyəti tamamilə dayandırılmışdı. 2003-cü il yanvar ayının 1-dən etibarən Azərbaycan Kitab Palatası fəaliyyətini Azərbaycan Milli Kitabxanasının nəzdində Çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsi kimi davam etdirməyə başladı. 1999-cu ildə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunduğundan bu şöbə milli biblioqrafik vəsaitlər hazırlayıb nəşr etdirirdi.

Respublikamızda ilk universal xarakterli fundamental milli biblioqrafiya vəsaiti olan ***"Azərbaycan kitabı"*** biblioqrafiyasının I cildi 1963-cü ildə nəşr olunmuşdur. Bu cild 1780-ci ildən 1920-ci ilə qədər olan dövrü əhatə edir, 1982-ci ildə II cildin birinci kitabı işıq üzü görmüşdür. Bu cilddə 1920-1940-cı illərdə Azərbaycanda çap olunan humanitar elmlərə dair kitablar öz əksini tapmışdır.

1941-1950-ci illərdə çap olunan ədəbiyyatı əhatə edən III cild 2014-cü ildə işıq üzü görmüşdür. Biblioqrafiyada bu illər ərzində Azərbaycan ərazisində bütün elm sahələrinə dair çap olunan, eyni zamanda keçmiş Sovetlər Birliyinin ərazisində digər müəlliflər tərəfindən Azərbaycan haqqında yazdıqları kitab və kitabçalar öz əksini tapmışdır.

2016-cı ildə göstəricinin 552 səhifədən ibarət olan və 1921-1940-cı illəri əhatə edən II cildinin II kitabı işıq üzü görmüşdür.

Biblioqrafiyanın IV cildi isə 2016-cı ildə çap edilmiş və 1951-1960-cı illəri əhatə edir.

2018-ci ildə 1961-1970-ci illəri əhatə edən V cildi nəşr edilmiş, hazırda 1971-1980-ci illəri əhatə edən VI cildi çapa tam hazırdır. "Azərbaycan kitabı" biblioqrafiyasının 10 cilddə tərtibi nəzərdə tutulmuşdur.

Vəsaitin I cildində 1329, II cildin II kitabında 4814, III cilddə 4897, IV cilddə 9954, V cildin I kitabında 10237, II kitabında isə 9016 ədəbiyyatın təsviri öz əks olunmuşdur.

Cari biblioqrafik informasiya mənbələrinin yaradılması və tələbatçıya

çatdırılmasının dövriliyi məsələsi böyük əhəmiyyətə malikdir. Milli Kitabxana 2006-cı ildən öz fonduna daxil olan yeni ədəbiyyatın cari biblioqrafik göstəricilərini tərtib etməyə başlamışdır. Bu cari informasiya göstəricisini hazırlamaqda məqsəd oxucu və mütəxəssisləri Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etməkdir. ***"Yeni kitablar"*** adlı annotasiyalı biblioqrafik informasiya göstəricisi əvvəllər yarımillik idi, ildə iki nömrəsi buraxılırdı. Lakin kitablar çox olduğuna görə 2007-ci ildən etibarən bu biblioqrafik vəsait rüblük hazırlanır və həmin dövr ərzində Milli Kitabxananın fondlarına daxil olan bütün yeni ədəbiyyat orada öz əksini tapır.

Burada Azərbaycan, rus və digər xarici dillərdə olan bütün nəşrlər əhatə olunur. Materiallar bölmələrin daxilində elm sahələri üzrə qruplaşdırılır və oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə hər bir kitabın şifrələri də verilir. Hər bölmə daxilində əvvəlcə Azərbaycan dilində, daha sonra isə rus və digər xarici dillərdə olan ədəbiyyat verilmiş, onların düzülüşündə əlifba prinsipi əsas götürülmüşdür. Burada hər bir əsərə qısa məlumat annotasiyası da verilmişdir.

2013-2021-ci illəri əhatə edən buraxılışlara diqqət yetirsək görərik ki, ən çox kitab 2015, ən az isə 2020-ci illərin nəşrlərində əkini tapmışdır.



1960-cı ildən Azərbaycan Dövlət Kitab Palatası tərəfindən nəşr edilən ***"Birillik Azərbaycan Kitabiyyatı"*** il ərzində dilindən, mövzusundan, janrından asılı olmayaraq respublikada nəşr edilmiş bütün kitablar barəsində tam biblioqrafik məlumat verir. Müxtəlif təşkilati və maliyyə çətinliklərinə görə 1986-cı ildən etibarən bu vəsaitin nəşri dayanmışdır.

2004-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanasına "Milli Kitabxana" statusu verildikdən sonra milli biblioqrafiya vəsaitlərinin nəşri işi yenidən gündəmə gəldi və həmin ilin iyununda 1990-cı ilə aid ilk buraxılış uzun fasilədən sonra işıq üzü gördü. İlk buraxılışlar 1990 və 1991-ci illərdə respublikamızda nəşr olunan kitablar və kitabçalar haqqında məlumatları əhatə etmişdir.

Bu vəsaitin çapa hazırlanması işində Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının, BDU-nun Elmi Kitabxanasının, İqtisad Universitetinin, Tibb Universitetinin Elmi Kitabxanalarının və bir sıra universitetlərin kitabxanalarının mütəxəssisləri də yaxından iştirak edirlər. "Birillik Azərbaycan Kitabiyyatı"nda olan yardımçı göstəricilər və statistik məlumatlar respublikada nəşr edilən kitab məhsulunun tərkibi barədə müxtəlif aspektli informasiya əldə etməyə imkan yaradır. Toplanmış material elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında istifadə edilən təsnifat əsasında qruplaşdırılır.

Toplanmış material elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında istifadə edilən təsnifat əsasında qruplaşdırılmışdır. Burada məcburi ünsürlərlə yanaşı, fakultativ ünsürlər də öz əksini tapır.

Bölmələr daxilində əvvəlcə Azərbaycan, sonra isə rus dilində olan materiallar verilmişdir. Hər bir bölmə və yarımbölmə daxilində əlifba prinsipi gözlənilmişdir. Vəsaitin sonunda oxucuların ondan istifadəsini asanlaşdırmaq məqsədilə köməkçi aparat kimi həm Azərbaycan, həm də rus dillərində "Müəlliflərin əlifba göstəricisi" və "Sərlövhələrin əlifba göstəricisi" tərtib olunmuşdur. Birinci köməkçi göstərici müəllif üzrə axtarışa köməklik göstərirsə, ikincisi illikdə sərlövhə üzrə təsvir olunmuş əsərlərin axtarışını asanlaşdırır.

2013-2021-ci illəri əhatə edən buraxılışlarına nəzər yetirsək görərik ki, ən çox ədəbiyyat 2016-cı ildə əks olunmuşdur.

| 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| 2733 | 2997 | 2738 | 3112 | 2429 | 2240 | 1452+1384 = 2836 | 1831 | 2414 |

İctimai istiqamətinə görə bu vəsait ümumi, funksional-məqsəd və xronoloji əlamətə görə retrospektiv, biblioqrafiyalaşdırma obyektinin məzmun əlamətinə

görə isə universal göstəricidir. Onun tərtibində əsas meyar kimi bir il ərzində respublikamızda kitab və kitabça halında nəşr olunmuş əsərlər götürülmüşdür.

Bu vəsaitlərin nəşrində məqsəd informasiya tələbatçılarını həm dünya, həm ölkə, həm də ayrıca Azərbaycan Milli Kitabxanasının fondunda mühafizə edilən hər növ materiallarla tanış etmək, lazım olan informasiyanın həm məsafədən, həm də kitabxana daxilində əldə edilməsinə kömək etməkdir. Kitabxananın saytında yerləşən "Nəşrlərimiz" bölməsində bu biblioqrafik vəsaitlərin tam mətnlərindən elektron formada istifadə etmək mümkündür. Kitabxananın əməkdaşlarının əməyinin nəticəsi kimi ərsəyə gələn bu vəsaitlər milli biblioqrafiyanın formalaşması və inkişafında əvəzsiz rol oynayır.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Milli Kitabxanası /red. və burax. məs. K.Tahirov; tərt. G.Səfərəliyeva; foto. S.İmanov.- Bakı: [s.n.], [2008].- 55, [3] s.

**2.** Nəşrlərimiz. URL: https://www.millikitabxana.az/publications/ publications-of-the-library

**3.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər): tarix e. n. a. dər. al. üçün təq. ed. dis.: 05.25.03 /K.M.Tahirov; AMEA, Mərkəzi Elmi Kitabxanası.- Bakı, 2009.- 174s.

**4.** Tariximiz. URL: https://www.millikitabxana.az/about-us/history